**NƏTİCƏLƏRƏ DAİR BÜLLETEN**

# Yaxşı İdarəçilik üçünTərəfdaşlığın regional layihələri

**Sentyabr 2020**

## Əsas rəqəmlər

- 2015-ci ildən bəri 2 ardıcıl mərhələ
- 3.692.400 avro dəyərində büdcə ilə 4 regional layihə

## Yaxşı İdarəçilik üçün Tərəfdaşlıq nə deməkdir?

Yaxşı İdarəçilik üçün Tərəfdaşlıq proqramı (YİT) vasitəsilə Avropa İttifaqı və Avropa Şurası Şərq Tərəfdaşlığı regionunda (Ermənistan, Azərbaycan, Gürcüstan, Moldova Respublikası, Ukrayna, Belarus) idarəçiliyin gücləndirilməsi uğrunda birgə çalışırlar.

YİT Şərq Tərəfdaşlığı ölkələrinə insan hüquqları, qanunun aliliyi və demokratiya sahələrində qanunvericiliyi və təcrübəni Avropa standartlarına yaxınlaşdırmaq üçün ehtiyaclara uyğunlaşdırılmış dəstək verir.

## Layihə: İqtisadi cinayətlərin qarşısının alınması və mübarizə tədbirlərinin gücləndirilməsi (yanvar 2019-dekabr 2021)

*YİT II mərhələ, ümumi problemlərə diqqət yetirmək və korrupsiya, çirkli pulların yuyulması və terrorçuluğun maliyyələşdirilməsi ilə effektiv mübarizə aparmaq üçün yeni alət və mexanizmlərin anlaşılması və qəbul edilməsi ilə Şərq Tərəfdaşlığı ölkələrinə* ***iqtisadi cinayətlərlə mübarizə və qarşısını almaq*** *potensialını gücləndirmək məqsədilə dəstək verir.*

- Parlament üzvləri üçün etik davranış qaydalarının hazırlanmasında və ya təkmilləşdirilməsində siyasi qərarvericiləri dəstəkləmək məqsədilə **Parlament üzvlərinin Etik Davranış Qaydaları haqqında qanun layihələrinin hazırlanması üzrə alətlər dəsti** işlənib hazırlanmışdır. Parlament üzvlərinin davranışı və maraqların toqquşmasının tənzimlənməsinə dair qabaqcıl təcrübələr Şərq Tərəfdaşlığı ölkələrinin nəzarət orqanlarına və parlament üzvlərinə təqdim edilmişdir.
- **Terrorçuluğun maliyyələşdirilməsi və kütləvi qırğın silahlarının yayılmasının qarşısını almağa yönəlmiş maliyyə sanksiyaları** tətbiq etmək üzrə praktiki mütəxəssislərin və siyasi qərarvericilərin potensialı artırılmış və təlim fəaliyyəti nəticəsində bu sahədə regional əməkdaşlığa təkan verəcək platforma yaradılmışdır.
- Layihə Şərq Tərəfdaşlığı ölkələrinin səlahiyyətli orqanları arasında **aktivlərin bərpası ilə bağlı** əməkdaşlığın gücləndirilməsinə və **yaxşı təcrübələr**in inkişafına kömək etmişdir. Regional layihə bir sıra müvafiq mövzularda alətlər, qabaqcıl təcrübələr, məlumat mübadiləsi və şəbəkələnməni təmin etdi, bununla da Şərq Tərəfdaşlığı ölkələrində davam edən islahatlara töhfə vermis oldu.

Bu layihə barədə ümumi məlumat vərəqəsini internet səhifəsindən əldə etmək mümkündür.

## Layihə: Vəkillik peşəsinin Avropa standartlarına uyğun olaraq gücləndirilməsi (iyul 2019-dekabr 2021)

*YİT II* ***vətəndaşların hüquqi müdafiəsini daha yaxşı təmin etmək*** *məqsədilə fəaliyyətləri təkmilləşdirmək və müstəqilliyi artırmaq üçün Vəkillər Kollegiyaları arasında əməkdaşlığın gücləndirilməsini dəstəkləyir.*

- Avropa standartlarına uyğunlaşma məqsədilə layihə, 5 fakt-araşdırıcı missiya və müvafiq maraqlı tərəflərlə 33 ikitərəfli görüşlər əsasında, regiondakı **vəkillərin fəaliyyətinin prosessual və institusional quruluşlarına dair müqayisəli təhlil** işləyib hazırladı və paylaşdı, boşluqları aradan qaldırmaq üçün tövsiyələr verdi.
- **Potensialın artırılması fəaliyyətləri ilə** digər ölkələrdə vəkillik fəaliyyəti və vəkillərin peşəkarlığının artırılması və regional əməkdaşlığa olan ehtiyac barədə 30 vəkilin məlumatlılığı artırıldı.
- **Vəkillər Kollegiyaları və assosiasiyaları üçün onlayn regional əməkdaşlıq şəbəkəsi** kimi internet səhifəsinin yaradılması, hüquq peşəsi ilə bağlı Avropa standartları və qabaqcıl təcrübələr və Şərq Tərəfdaşlığı ölkələrində hüquqi fəaliyyətə dair tənzimləyici çərçivələr haqqında geniş məlumat əldə etməyə imkan verdi.

Bu layihə barədə ümumi məlumat vərəqəsini internet səhifəsindən əldə etmək mümkündür.

Funded
by the European Union
and the Council of Europe

EUROPEAN UNION

COUNCIL OF EUROPE
CONSEIL DE L'EUROPE

Implemented
by the Council of Europe

## Layihə: Qadınların ədalət mühakiməsinə çıxışı: İstanbul Konvensiyası və gender bərabərliyi üzrə digər Avropa standartlarının həyata keçirilməsi (yanvar 2019-dekabr 2021)

*YİT II Avropa Şurasının Qadınlara qarşı zorakılıq və məişət zorakılığının qarşısının alınması və ona qarşı mübarizə haqqında Konvensiyasına (İstanbul Konvensiyası) uyğun olaraq **qadınlar və zorakılıq qurbanı olan qadınlar üçün ədalət mühakiməsinə çıxış imkanlarının** artırılmasına dəstək verir, bununla da onun Şərq Tərəfdaşlığı ölkələri tərəfindən ratifikasiya olunması istiqamətində işə töhfə vermiş olur.*

- Layihə regionda **qadınların ədalət mühakiməsinə çıxışı və İstanbul Konvensiyası barədə məlumatlılığı artırdı** və tərəfdaşları İstanbul Konvensiyasını imzalama və ratifikasiya etmə proseslərini davam etdirməyə sövq etdi və bununla da Moldova Respublikasının Parlamentində təsdiqini gözləyən İstanbul Konvensiyasının ratifikasiya edilməsi haqqında Qanun layihəsinin təsdiq edilməsinə, Ermənistan və Ukraynada ratifikasiyaya hazırlıqlara və Azərbaycanda mümkün imzalanma barədə müzakirələrə töhfə vermiş oldu.
- Hüquqşünaslar üçün pilot mentorluq proqramı, 60 hüquqşünası, qadınların ədalət mühakiməsinə çıxışının təminatı və qadınlara qarşı zorakılığa müvafiq hüquqi cavab verilməsi mövzusunda **digər hüquqşünaslara təlim vermə potensialını** inkişaf etdirməyə imkan verdi.
- Layihə, regional fəaliyyət təşkil edərək və Şərq Tərəfdaşlığı ölkələrinin 35 yüksək səviyyəli qərarverici nazirlik işçilərini bir araya gətirərək **qadınların ədalət mühakiməsinə çıxışı imkanını ölçmək üçün göstəricilər**in işlənib hazırlanmasına kömək etmişdir.

Bu layihə barədə ümumi məlumat vərəqəsini internet səhifəsindən əldə etmək mümkündür .

## Layihə: Ayrı-seçkilik, nifrət cinayətləri və nifrət nitqi qurbanları üçün məhkəmədən kənar həll mexanizmləri vasitəsilə ədalət mühakiməsinə çıxış imkanının artırılması (fevral 2019-dekabr 2021)

*YİT II, **ayrı-seçkilik, nifrət cinayətləri və nifrət nitqi qurbanlarının ədalət mühakiməsinə çıxışı**nı məhkəmədən kənar həll mexanizmləri vasitəsilə yaxşılaşdırmağa; bərabərlik məsələləri üzrə işləyən orqanların/Ombudsman ofislərinin potensialını və QHT-lərlə əməkdaşlığını gücləndirməyə; və ayrı-seçkiliyə yol verilməməsi ilə bağlı məlumatlılığın artırılmasına çalışır.*

- Layihə, Ermənistanda **milli azlıqlara dair Qanun layihəsinin** və Moldova Respublikasında **Bərabərlik haqqında Qanuna dəyişiklik layihəsinin** Avropa standartlarına **uyğunlaşdırılmasına dəstək verdi**. Belarusda əhali arasında maarifləndirmə və ayrı-seçkiliklə mübarizə üzrə dövlət orqanlarının fəaliyyətinin gücləndirilməsi zərurətini vurğulamaqla **ayrı-seçkiliklə bağlı** ilk **ictimai sorğu** hazırladı.
- Layihədə Ukrayna, Ermənistan və Moldova Respublikasında ayrı-seçkilik, nifrət nitqi və nifrət cinayətləri ilə əlaqəli **məlumat toplama sistemlərinin təkmilləşdirilməsi** məqsədilə tövsiyələr verilmişdir.
- Bütün Şərq Tərəfdaşlığı ölkələrini əhatə edən seminarlar və regional görüş vasitəsilə layihə, ayrı-seçkilik qurbanları ilə əlaqə qurmaq və öz hüquqları barədə məlumatlandırmaq üçün **bərabərlik məsələləri üzrə işləyən qurumlar/ Ombudsman ofislərinin təmsilçiləri və QHT-lər arasında daha güclü əlaqələr qurdu**. Belarus və Azərbaycanda dövlət qurumlarının, bərabərlik məsələləri üzrə işləyən qurumların və QHT-lərin ayrı-seçkiliklə bağlı Avropa standartlarından istifadə etmək imkanları artırıldı. Nəticədə, Azərbaycanda Ombudsman ofisinin mandatına ayrı-seçkilik məsələləri də aid edildi.

  Bu layihə barədə ümumi məlumat vərəqəsini internet səhifəsindən əldə etmək mümkündür.

Funded by the European Union and the Council of Europe
EUROPEAN UNION
COUNCIL OF EUROPE
CONSEIL DE L'EUROPE
Implemented by the Council of Europe